**UOT 32 (327.82)**

**Qasım Hacıyev,**
***AMEA Qafqazşünaslıq İnstitutunun Qafqaz tarixi (qədim dövrlərdən XX əsrədək) şöbəsinin müdiri, tarix elmləri doktoru, professor***
***gasimh@mail.ru***
***ORCID iD: 0000-0002-6500-7890***

**Vahid Ömərov,**
***AMEA Qafqazşünaslıq İnstitutunun Şimali Qafqaz şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***
***vahid-o@mail.ru***
***ORCID iD: 0000-0001-6872-8952***

https://doi.org/10.59849/2709-5096.2023.1.6

# HEYDƏR ƏLİYEV VƏ QAFQAZ ÖLKƏLƏRİ LİDERLƏRİ: ƏMƏKDAŞLIQ TƏCRÜBƏSİ

***Annotasiya***

*Məqalədə Qafqaz ölkələri liderlərinin Ulu öndərin qeyri-adi siyasi fəaliyyəti, nüfuzu və şəxsiyyəti haqqında fikirləri tədqiq olunmuşdur. Süleyman Dəmirəl, Əhməd Necdət Sezər, Bülənd Ecevit, Rəcəb Tayyib Ərdoğan, Boris Yeltsin, Vladimir Putin, Eduard Şevardnadze, Mixail Saakaşvili, Karen Dəmirçiyan, Levon Ter-Petrosyan, Əli Əkbər Haşimi Rəfsəncani, Seyid Məhəmməd Xatəminin fikir və etirafları Heydər Əliyevin böyük tarixi şəxsiyyət olduğunu bir daha təsdiq edir. Onlar Heydər Əliyevi Azərbaycanın, regionun, dünyanın lideri hesab etmiş, sovet dövründə Azərbaycanda və Moskvada fəaliyyətindən, müstəqillik dövründə Azərbaycana ikinci rəhbərliyindən, Qafqazda geosiyasətin məhz Heydər Əliyevin qərarından sonra dəyişməsindən, onun müasir Azərbaycan dövlətinin banisi, müasir Azərbaycan millətinin atası olması haqqında danışmışlar.*

***Açar sözlər:*** *Heydər Əliyev, Qafqaz, liderlər, müstəqillik, geosiyasət, əməkdaşlıq.*

**Gasim Hajiyev**
**Vahid Omarov**

# HEYDAR ALIYEV AND THE LEADERS OF THE CAUCASUS COUNTRIES: EXPERIENCE OF COOPERATION

***Annotation***

*In the article, the opinions of the leaders of the Caucasus countries about the extraordinary political activity, reputation and personality of the Great Leader were studied. Suleyman Demirel, Ahmed Necdet Sezer, Buland Ecevit, Recep Tayyip Erdogan, Boris Yeltsin, Vladimir Putin, Eduard Shevardnadze, Mikheil Saakashvili, Karen Demirchiyan, Levon Ter-Petrosyan, Ali Akbar Hashemi Rafsanjani, Seyyed Mohammad Khatami, opinions and confessions of Heydar Aliyev confirms once again that he is a great historical figure. They considered Heydar Aliyev the leader*

*of Azerbaijan, the region, and the world, talked about his activities in Azerbaijan and Moscow during the Soviet period, his second leadership of Azerbaijan during the period of independence, the change of geopolitics in the Caucasus after Heydar Aliyev's decision, and his being the founder of the modern Azerbaijan state and the father of the modern Azerbaijani nation.*

***Keywords:*** *Heydar Aliyev, Caucasus, leaders, independence, geopolitics, cooperation.*

***Giriş***

Məlum olduğu kimi, tarix keçmiş, indi və gələcək arasında əlaqə yaradan insan fəaliyyəti prosesidir. Cəmiyyətin sadə mərhələdən daha mürəkkəb mərhələyə doğru inkişaf etdiyi tarixi inkişafın xətti modeli elmdə və fəlsəfədə çoxdan mövcuddur. Lakin hazırda tarixə sivilizasiyalı yanaşmaya üstünlük verilir.Tarixi prosesin inkişafına bir çox amillər təsir göstərir. Bu amillər arasında siyasi fəaliyyətlə məşğul olan şəxsiyyət mühüm yer tutur. İnsanın tarixdə rolu o zaman xüsusilə artır ki, o, birbaşa hakimiyyətlə bağlıdır. Tarixi məhz belə insanlar yaradır. Fəal həyat mövqeyi tutan dahi şəxsiyyətin siyasi fəaliyyəti, nüfuzu tarixi prosesə dəyərli töhfədir.

Tarixi prosesdə şəxsiyyətin rolu məsələsi bütün dövrlərdə alimləri düşündürüb və hazırda da bu problem aktual olaraq qalır. Həyat yerində dayanmır, tarix irəliləyir, bəşər cəmiyyətinin durmadan inkişafı baş verir və keçmişdə qalanları əvəz edən görkəmli şəxsiyyətlər tarix səhnəsinə çıxır.

Xalqın yaradıcı qüdrəti böyük tarixi şəxsiyyətlərin əməllərində xüsusilə aydın təzahür edir. Bəşəriyyətin bütün həyatı boyu şəxsiyyətlə tarix arasındakı əlaqə, onların bir-birinə qarşılıqlı təsirilə yanaşı, eyni zamanda, böyük şəxsiyyətin yaranmasına müəyyən tarixi şərait səbəb olur.

Xalq, insanların tarixi birliyinin xüsusi növü olduğu üçün ona tapşırılan rolu yerinə yetirir, özünə öz ideallarını təcəssüm etdirən lider seçir. Şəxsiyyətin tarixin gedişatına təsiri təkcə görkəmli şəxsiyyətin istedadından deyil, həm də təşkilatçılıq qabiliyyətinə malik olmasından asılıdır. Görkəmli şəxsiyyətin meydana çıxmasını obyektiv şərait, müəyyən sosial ehtiyacların yetişməsi hazırlayır. Tarixin yetişdirdiyi belə görkəmli şəxsiyyətlərdən biri dahi dövlət xadimi Heydər Əliyevdir. Tarixdə hökm sürən zərurətlə insanların tarixi fəaliyyəti arasında üzvi əlaqə yaradan, qeyri-adi istedadı ilə tarixi prosesin perspektivini dərk edən, öz məqsədlərini hələ də verilmiş tarixi reallıq daxilində yeniliklər əsasında formalaşdıran Heydər Əliyev tarixin gedişatını dəyişdirə bilən qüdrətli siyasi xadimdir.

Türkiyə, İran, Rusiya, Gürcüstan, hətta düşmən Ermənistanın liderləri Ulu öndərin qeyri-adi siyasi xadim olmasını yüksək dəyərləndirmişlər.Bu fikirlərdə Heydər Əliyevin həqiqətən həm Azərbaycanın, həm Qafqazın, həm də bütün dünyanın lideri olduğu ifadə olunmuşdur. Heydər Əliyevin həyat və fəaliyyətinə qibtə edənlər heyrətlərini gizlədə bilməmiş, ona layiq olan fikirlərini söyləmişlər. Bu gün həmin fikirlər Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin fəaliyyətini öyrənmək üçün böyük əhəmiyyət kəsb edir.

***Qafqaz problemləri və Türkiyə liderləri ilə birgə fəaliyyət***

Heydər Əliyev Azərbaycanın müstəqilliyini ilk tanıyan Türkiyə Cümhuriyyəti ilə əlaqələrə önəm verdi, milli, hüquqi dövlət qurdu, fövqəladə çətin işlər gördü, sabitliyi təmin etdi, dövlətin iqtisadi, hərbi qüdrətini artırdı, demokratik cəmiyyət yaratdı. Onun Türkiyəyə səfərləri hər iki ölkə arasında münasibətlərin möhkəmlənməsində mühüm rol oynadı. Heydər Əliyevin Azərbaycan xalqının iradəsi və dəstəyi ilə hakimiyyət başında olmasını Azərbaycan, Qafqaz və bölgə üçün çox böyük uğurlu imkan hesab edən, Türkiyənin bütün beynəlxalq toplantılarda Azərbaycanın yanında olduğunu bildirən, 1993-2000-ci illərdə Türkiyə Cümhuriyyətinin

Prezidenti olmuş Süleyman Dəmirəl onu Azərbaycan, region, dünya lideri kimi qiymətləndirərək Azərbaycan-Türkiyə əlaqələrinin inkişafına hər iki liderin şəxsi töhfələr verdiyini xatırladaraq demişdir:

*"Heydər Əliyev öz ölkəsində və regionda böyük bir lider olduğunu sübut etmişdir. Bu hamı tərəfindən qəbul edilmiş bir həqiqətdir ...Müstəqilliyin ilк günündən etibarən hər zaman, hər məsələdə Azərbaycanın yanında olan Türkiyə, bundan sonra da Azərbaycanın yanında olmaqda davam edəcəkdir." [4, s.1]*

Heydər Əliyevin təşəbbüsü ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin və digər layihələrin Türkiyədən keçməsi, Qafqaz evi ideyasının irəli sürülməsi Azərbaycan-Türkiyə əlaqələrinə güclü təsir etdi. Ona Türkiyə-Azərbaycan əlaqələrinin və dünya siyasətinin inkişafındakı xüsusi xidmətlərinə görə 1998-ci ildə Atatürk Universitetinin fəxri doktoru adı verildi.

Heydər Əliyev türk xalqlarının tarixi, mədəni-mənəvi birliyinə, xüsusi önəm vermişdir. Buna görə də Türkiyə Cümhuriyyətinin ictimai və dövlət xadimlərindən, 1999-2002-ci illərdə 34-cü Baş naziri olmuş Bülənd Ecevit Azərbaycan ilə Türkiyə arasında dərin kökləri olan tarixi və mədəni bağların möhkəmləndirilməsi, "*tarixdən gələn bu bağların yenidən canlandırılması və Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin inkişafı üçün hörmətli Əliyevin fövqəladə səylər göstərdiyini diqqətə çatdırmışdır"*.[3]

2000-2007-ci illərdə Türkiyə Cümhuriyyətinin prezidenti olmuş Əhməd Necdət Sezər uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığına görə böyük şərəf və xoşbəxtlik hissləri keçirdiyini bildirərək qeyd etmişdir:

"*Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.*

*Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir"*. [3]

Heydər Əliyev Qafqazda və dünyada sülh və əmin-amanlıq uğrunda mübarizə aparmışdır. Bu fəaliyyəti yüksək dəyərləndirən 2014-cü ildən Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan mərhum Heydər Əliyevin Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutduğunuqürur hissilə söyləmişdir [3].

***Rusiya ilə əməkdaşlıq***

Heydər Əliyev hakimiyyətə ikinci gəlişindən sonra Rusiya ilə münasibətləri normallaşdırdı, qarşılıqlı etimad, strateji tərəfdaşlıq və hərtərəfli əməkdaşlıq əsasında inkişaf etdirdi, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzaladı, qarşılıqlı münasibətləri Müstəqil Dövlətlər Birliyi çərçivəsində daha da möhkəmləndirdi. 1991-1999-cu illərdə Rusiya Federasiyasının Prezidenti olmuş Boris Yeltsin Heydər Əliyevlə görüşü barədə demişdir:

*"Çox hörmətli Heydər Əliyeviç! Əziz qonaqlar, azərbaycanlı dostlar! Cənablar! Bir Şərq kəlamında deyilir: "Dost gəlişi həmişə bayramdır". Odur ki, bu gün bizdə ikiqat bayramdır. Biz Moskvada Heydər Əliyeviç Əliyevi salamlayırıq. Biz Azərbaycan Respublikası prezidentinin Rusiyaya səfərinin uğurlu olmasına ürəkdən şadıq. Görüşümüz mühüm, sanballı nəticələrlə başa*

*çatdı. Bu, hər şeydən əvvəl, dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında imzaladığımız müqaviləyə aiddir. Müqavilədə başlıca məsələ — qarşılıqlı fəaliyyətimizi keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyəti ilə ifadə edilmişdir." [9,s.20]*

Boris Yeltsin Rusiya və Azərbaycanın ümumi tarixi tellərlə sıx bağlığı, hər iki ölkənin və xalqın ümumi nailiyyətləri və qələbələri olduğunu aşağıdakı kimi ifadə etmişdir:

"*Azərbaycanlıların müdrik bir kəlamında deyilir: "Hər şeyin təzəsi, dostun köhnəsi". Dostluq olduqca qiymətli ümumi irsdir və biz bu irsi qoruyub artırmalıyıq. Qəti əminəm ki, Heydər Əliyeviç, Sizin Rusiyaya rəsmi səfəriniz dostluğumuzun inkişafına, hərtərəfli və qarşılıqlı surətdə faydalı əməkdaşlığın dərinləşməsinə kömək edəcəkdir*." [9,s.20]

2000-ci ildən Rusiya Federasiyasinin Prezidenti Vladimir Putin Heydər Əliyevdən öyrənəcəyi hələ çox şeylər olduğunu [8] etiraf etmiş, onu Azərbaycan xalqının dahi oğlu, böyük siyasətçi və dövlət xadimi olaraq səciyyələndirərək demişdir:

*"Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün keçmiş ittifaq miqyasında tanınmış şəxsiyyət idi. Başa düşdüm ki, o, heyrətamiz insan, ağıllı, dəqiq, bacarıqlı rəhbər, əsl siyasətçidir. Heydər Əliyevin miqyası Azərbaycanın hüdudlarından çox-çox kənara çıxmışdı. Açıq deyim, Azərbaycanın bəxti gətirmişdir ki, dövlətin başında Avropa və dünya miqyasında tanınan bir siyasətçi dururdu. O, bir tərəfdən beynəlmiləlçi, digər tərəfdən isə öz yurdunun vətənpərvəri idi. Heydər Əliyev həm də Rusiyanın dostu idi... Onunla şəxsi, çox səmimi münasibətlərimiz var idi." [10]* Vladimir Putin Heydər Əliyevi həm keçmiş SSRİ, Avropa və dünya miqyaslı beynəlmiləlçiliyi, ümumbəşəriliyi və milliliyi, vətənpərvərliyi, millətçiliyi özündə birlədirən görkəmli dövlət xadimi və dahi şəxsiyyət kimi qiymətləndirmiş, həm sovet dövründə, həm müstəqillik illərində onun səmərəli fəaliyyətinin rus xalqının ümumi tarixi ilə bilavasitə bağlı olduğunu belə vurğulamışdır:

*"O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir*."[3, s.3]

Vladimir Putin İlham Əliyevlə görüşündə Azərbaycanda 2023-cü ildə Heydər Əlirza oğlu Əliyevin 100 illiyinin bayram edildiyini, bu bayramın Rusiyada də keçirildiyini, həm Sovet İttifaqının, həm də müstəqil Azərbaycanın bu siyasi xadiminə ölkəsində hörmət edildiyini, özünün bu dahi şəxsiyyətə xüsusi münasibəti olduğunu bildirmişdir:

*"Bu görkəmli siyasi xadim ölkələrimizin tarixində birləşdirici simadır". [11]*

Rusiya Federasiyasinin subyektlərindən olan Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipov Azərbaycana səfəri zamanı Azərbaycan və Dağıstanın din, mədəniyyət və tarix baxımından qardaş olduğunu, onlar arasında möhkəm əlaqələrin olduğunu göstərərək demişdir:

*"Bu əlaqələrin möhkəmlənməsinə böyük töhfəni görkəmli siyasi və dövlət xadimi Heydər Əliyev və Prezident Vladimir Putin verib."* [2]

Ramazan Abdulatipov Heydər Əliyevin həmişə Dağıstana dəstək verdiyini bildirərək qeyd edib:

*"O, Dağıstanın bir çox siyasi və mədəniyyət xadimləri ilə dost idi. Ümummilli lider Heydər Əliyevin siyasətini Prezident İlham Əliyev layiqincə davam etdirir*." [2]

***Gürcüstan ilə dostluq və əməkdaşlıq***

Gürcüstanın liderlərindən biri olmuş Eduard Şevardnadze Heydər Əliyevin sovet və müstəqillik dövrlərindəki fəaliyyətindən bəhs edərək demişdir:

*"Heydər Əliyev sovet dövründə də, elə müstəqil Azərbaycanda da böyük dövlət xadimi kimi silinməz iz buraxdı. Tale onu bütün sınaqlardan qüdrətli bir şəxsiyyət, böyük siyasətçi kimi çıxardı, tarix və reallıqlar isə bu həqiqəti təsdiqlədi." [12, s.64]*

O, Heydər Əliyevin fəaliyyətini bir neçə mərhələyə ayırmışdır:

- sovet dövründə Azərbaycanda və Moskvada fəaliyyəti;

-müstəqillik dövründə Azərbaycana ikinci rəhbərliyi, şəxsi dostluq və qardaşlığın möhkəmlənməsi illəri;

- Gürcüstan azərbaycanlılarına və gürcü xalqına qayğısı;

- enerji layihələrində Gürcüstanın maraqlarının nəzərə alınması.

Sovet dövründə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi, xüsusilə də onun fəaliyyəti Sovet İttifaqında böyük hay-küyə səbəb oldu. Eduard Şevardnadze deyirdi:

*"O, ilk növbədə neqativ hadisələrə-rüşvətə, korrupsiyaya və digər cinayətlərə qarşı mübarizəyə başlaması ilə tanındı. Hamının öz vəziyyətindən razı olduğu və əlavə heç bir problem yaratmaq istəmədiyi bir vaxtda dondurulmuş bir əhatədə onun bu cür fəaliyyətə başlaması böyük partlayış idi. Əliyevin fəaliyyəti, hay-küylü məhkəmə prosesləri, onun açıq çıxışları bir çoxlarını dəhşətə gətirirdi, amma əhali bütün bunları alqışlayırdı." [12, s.3]*

Sovet İttifaqında xalqlar dostluğu, beynəlmiləlçilik siyasəti aparıldığından Qafqazda da əmin-amanlıq hökm sürürdü. Belə bir şəraitdə xalqların bir-birinə inamı, Cənubi Qafqazdakı hər üç respublikanın rəhbərlərinin prinsipial və beynəlmiləl mövqeyi Qafqazda qonşuluq və etimad mühiti yaratmışdı. Amma ermənilər bu mehribanlığa qarşı yönəlmiş gizli, məkrli əməllər həyata keçirməyə çalışırdılar. Eduard Şevardnadze xatirələrində yazır*:*

*"O vaxtlar Moskvada – Kremldə işlədiyimiz vaxt Siyasi Büronun iclasından əvvəl bizə bir sənəd payladılar, orada Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsi gündəliyə salınmışdı. Sonradan necə oldusa, xatırlaya bilmirəm, o sənəd yox oldu. Məsələ isə heç müzakirəyə də çıxarılmadı. Başa düşdüm ki, Heydər Əliyev bu məsələnin müzakirəsinin qarşısını böyük nüfuzu sayəsində almışdı."[5.]*

Heydər Əliyev Moskvada yüksək vəzifəyə ucalaraq ədalətin bərpası, asayişin qorunması, dövlət tapşırıqlarının yerinə yetirilməsi sahəsində fövqəl işlər həyata keçirirdi. Bunun üçünsə böyük təcrübə, gərgin zəhmət lazım idi. Çox keçmədi ki, SSRİ rəhbərliyində proseslər başqa cür cərəyan etdi. Heydər Əliyev bu siyasətlə barışmadı və istefaya getdi. Nəhayət, Sovet İttifaqı dağıldı, respublikalar müstəqillik qazandılar. Gürcüstanda və Azərbaycanda naşı siyasətçilər ölkələrini böhranlı bir vəziyyətə salanda, Azərbaycan xalqı Heydər Əliyevi, gürcü xalqı Eduard Şevardnadzeni hakimiyyətə qaytardı.

Harada, hansı mötəbər vəzifədə olub-olmamasından asılı olmayaraq Heydər Əliyev üçün Azərbaycan və Azərbaycan xalqının taleyi ən vacib məsələ idi. Müəyyən vaxtdan sonra Heydər Əliyev Azərbaycana qayıtdı. Əvvəl Naxçıvanda yaşayırdı. Sonralar isə Bakıya köçdü və məntiqli surətdə baş verməli olan hadisə baş verdi-xalqın sevgisi və inamı öz işini gördü. Eduard Şevardnadze deyirdi:

*"Tale elə gətirdi ki, Heydər Əliyev və mən 10 il ərzində öz ölkəmizə rəhbərlik etdik. Bu illər mükəmməl dostluq və qardaşlıq illəri idi. Moskvada oduğumuz zamanı biz ailəvi yaxın idik-mənim həyat yoldaşım Nanuli Əliyevin həyat yoldaşı Zərifə xanımı səmimi-qəlbdən çox istəyirdi. O, çox gözəl insan, həkim və professor idi.*

*Xatırlatmaq istəyirəm ki, Heydər Əliyevə digər məsələlərlə birgə, müxtəlif regionlarda xarici-siyasi əlaqələrin həllini də tez-tez tapşırırdılar. O, isə bunu böyük məsuliyyətlə yerinə yetirir*

*və böyük uğurlar əldə edirdi. Möhkəm iradəli və olduqca müdrik bir dövlət xadimi idi. Tezliklə bütün İttifaq miqyasında nüfuzu artdı."[12, s.3-4]*

Müstəqilliyin ilk illərindəki Gürcüstandakı bəzi iqtisadi çətinlikəri nəzərə alan Heydər Əliyev Gürcüstandakı soydaşlarına imkan daxilində kömək əlini uzatdı və onlara qayğı göstərdi.

*"O, öz millətsevərliyini, soydaşlarına, təkcə soydaşlarına yox, həm də qardaş gürcü xalqına, gürcü ziyalılarına olan məhəbbətini biruzə verirdi..*

*Məlumat var idi ki, vaxtaşırı öz gürcüstanlı soydaşlarına, Gürcüstanda fəailiyyət göstərən Azərbaycan məktəblərinə, məscidlərə, hətta gürcü məktəblərinə, Abxaziyadan olan gürcü qaçqınlarına, Gürcüstan patriarxına humanitar yardın göstərirdi. Azərbaycan mütəfəkkirləri Nəriman Nərimanovun və Cəlil Məmmədquluzadənin Tiflisdə yaşadıqları evləri sahiblərindən alıb özəlləşdirmiş və onları ev muzeyi kimi abadlaşdırandan sonra M.F.Axundovun ev muzeyini bərpa etmiş və orada Azərbaycan Mədəniyyəti Mərkəzi yaratmışdır.*

*Eyni zamanda, Tbilisi şəhərinin Dağüstü parkında bir çox Azərbaycan ziyalılarının büstünü qoymuşdur, ilk Azərbaycan Cümhuriyyətinin naziri Fətəli Xan Xoyskinin büstünün açılışında isə Heydər Əliyevlə mən də iştirak etmişəm.*

*Bilirdim ki, bizim kimi müstəqilliyini təzəcə bərpa etmiş Azərbaycanda da (xüsusən də 1993-1995-ci illərdə) bu problem var idi.*

*Onun tez-tez azərbaycanlılara daim qayğı göstərməsi azərbaycanlıların məskunlaşdığı öz el-obalarında qalmalarını daha da möhkəmləndirirdi.*

*Dostluğa xidmət edən kitablar, o cümlədən Heydər Əliyevlə mənim haqqımda olan kitablar Azərbaycan dilindən gürcü dilinə tərcümə olunmuşdur.*

*Elə buradaca onu qeyd etmək istəyirəm ki, Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti barədə o çətin dövrlərdə Gürcüstanda gürcü dilində kitabın yayılması böyük əhəmiyyət kəsb edirdi və Heydər Əliyevin fırtınalı həyat yolundan bəhs edən bu kitablar gürcülər tərəfindən sevilə-sevilə oxunurdu."[12, s.226]*

Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsində Azərbaycanın Prezidenti Heydər Əliyev böyük rol oynamışdır. Eduard Şevardnadze bununla əlaqədar olaraq deyirdi:

*"Heydər Əliyev Gürcüstan-Azərbaycan dostluğunu, qardaşlığını yeni və çox uca zirvələrə qaldıran, eyni zamanda bu böyük ənənənin təməlini yenidən qurub möhkəmləndirən tarixi şəxsiyyət, böyük dövlət xadimi idi.*

*Heydər Əliyev neft və qaz yataqlarında aparılan işlərə xüsusi diqqət yetirirdi. Sonralar biz bir-birimizlə tanış olduğumuz zamanı o mənə bildirdi ki, Xəzər dənizində irihəcmli neft və qaz yataqları mövcuddur, amma o zamankı rəhbəri buna əmin edə bilmədi. Məsələ bunda idi ki, Sovet İttifaqı, xüsusilə də Rusiya neft və qaz yataqları ilə zəngin idi. Maliyyə gəlirinin əsas mənbəyi də elə bu idi. Onlar hesab edirlər ki, o yetərlidir. Sözün qısası, o zaman bu məsələ Sovet İttifaqı üçün aktual deyildi.*

*Bu imkan Heydər Əliyevə verildikdə o, ilk növbədə Xəzər dənizi neft və qaz problemini gündəmə gətirdi. O, xüsusi şirkətləri bu işə cəlb etdi. Onlar təsdiq etdilər ki, Xəzər dənizində böyük neft və qaz yataqları mövcddur.*

*Heydər Əliyev enerji daşıyıcılarının əsas marşrutunun Gürcüstandan keçməsi üçün əlindən gələni əsirgəmədi.*

*O, Xəzərin zəngin neftinin çıxarılması və nəql olunmasında dünyaya yönəlik bir yol seçdi, Gürcüstanı da bu prosesə qoşdu. Nəticə artıq göz önündədir."[12,s.223]*

Neft-qaz kəmərlərinin çəkilməsi məsələsi ortaya çıxanda xətlərin İran və ya Ermənistan vasitəsi ilə Avropaya çatdırılması təklif olunurdu. Ancaq Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan,

Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Supsa xətlərinin Gürcüstandan keçməklə çəkilməsində və istismarında çox israrlı idi. Məhz onun dərin zəkası, möhkəm siyasi iradəsi sayəsində əsrin neft-qaz xətləri məhz Gürcüstandan keçirildi. Bu, dahi şəxsiyyətin gürcü xalqına, burada yaşayan azərbaycanlılara, eləcə də bütün Gürcüstan əhalisinə olan əvəzsiz töhfəsi idi.

Vəfatından sonra Gürcüstan dövləti və xalqı da onun işıqlı xatirəsini əbədiləşdirdi. Tbilisi şəhərində vaxtı ilə azərbaycanlıların məskunlaşdığı ərazidə onun büstü ucaldıldı və adına park salındı.

Qeyd edək ki, 2004-cü ildə Prezident İlham Əliyevin Gürcüstana səfəri zamanı bu parka Ulu öndərin adı verildi. Azərbaycanın xalq rəssamı, heykəltəraş Natiq Əliyevin hazırladığı qranit büst və postamentin hündürlüyü dörd metrdir. Büstün açılışında çıxış edən Prezident Mixail Saakaşvili bildirdi ki, Azərbaycan, azərbaycanlılar Gürcüstanın həmişə sadiq dostları olublar. Gürcüstan prezidenti Azərbaycanın çətin günlərdə Gürcüstana yardım etməsindən də danışdı. Mixail Saakaşvili Heydər Əliyevin xidmətlərinə toxunaraq dedi:

*"Bəzən sual verirlər: Heydər Əliyev bu regionun tarixində hansı rolu oynayıb? Düşünürəm ki, çox-çox mühüm rol oynayıb. Çünki 1990-cı illərin əvvəllərində o, deyəndə ki, Azərbaycan dünya bazarlarına Gürcüstan vasitəsilə çıxmalıdır, bu təklifin kommersiya baxımından üstünlüyü çox da aşkar deyildi, sırf siyasi mənada isə bu, çox riskli idi. Lakin o, bu işi axıra çatdırdı. Bu alternativ olmasaydı, indi regionumuzun Avropaya verdiyi ümidlər də olmazdı. Real olaraq, regionumuzun geosiyasəti məhz Heydər Əliyevin qərarından sonra dəyişdi. Eyni zamanda, o, müasir Azərbaycan dövlətinin banisi, müasir Azərbaycan millətinin atasıdır. Sıx birləşmiş Azərbaycan, dost Azərbaycan, uğurlu Azərbaycan isə Gürcüstanın özünün daxilində inteqrasiya və müvəffəqiyyətin, bizim ümumi gələcəyimizin rəhnidir. Bu gün strateyi tərəfdaşlar olmaq həmişəlik strateyi tərəfdaşlar olmaq deməkdir. Strateji tərəfdaşlıq məhz uzun müddət və həmişəlik tərəfdaşlıq deməkdir. Biz isə öz coğrafi mövqeyimizi nəzərə alaraq, belə olmağa borcluyuq. Biz birlikdə olmalıyıq, yeni dostlar tapmalıyıq. Bir dünyaya baxın: nə qədər parçalanma, nə qədər münaqişələr, nə qədər çəkişmələr, nə qədər həll edilməmiş problemlər var. Bizim xalqlarımız isə müdriklik göstərirlər. Mən hələ rəhbərləri demirəm, xalqlarımız bütün bu baş verənlərə qarışmamaq üçün müdriklik göstərirlər*".[13, s.2]

### *Ermənistan liderlərinin etirafları*

Sov.İKP MK Siyasi Bürosunun üzvü kimi Heydər Əliyev ermənilərin Azərbaycana qarşı bütün əsassız ərazi iddialarını, o cümlədən Qarabağla bağlı məkrli planlarını alt-üst edirdi. Buna görə də ermənilər onun hakimiyyətdən uzaqlaşdırılması üçün hər vasitəyə əl atırdılar.Onlar dünyanın hər yerindən erməniпərəst sovet rəhbərliyinə böhtan xarakterli məktublar göndərirdilər.

1974-1988-ci illərdə Ermənistan KP MK-nın birinci katibi işləmiş Karen Dəmirçiyan Heydər Əliyevin M.S.Qorbaçovun siyasətinə etiraz edərək istefa verməsini ermənilərin və erməniпərəst qüvvələrin "qələbəsi" kimi qələmə verərək deyirdi:

*"Biz ən əsas işi bacardıq - Qarabağ hərəkatı başlamazdan əvvəl ən mühüm işə nail olduq – Əliyevi hakimiyyətdən uzaqlaşdıra bildik. Bu çox vacib idi".[14]*

Nüvə energetikası üzrə sovet və rus alimi, vitse-admiral, Rusiya Elmlər Akademiyasının akademiki, Rusiya Federsiyası hökumətinin elm və təhsil sahəsində mükafatının laureatı Aşot Sarkisov isə 2012-ci ildə Moskva nəşr olunan memuar xarakterli "Xatirələr. Görüşlər. Düşüncələr" kitabında Karen Dəmirçiyanla onun faciəvi ölümündən az öncə – 1999-cu ilin avqustunda İrəvanda keçirdiyi görüş barədə yazır:

*“Bizim söhbətimizin xüsusi mövzusu Dağlıq Qarabağ oldu. O, Qarabağ probleminin mümkün həll yollarından bəhs edirdi, lakin onların heç biri asan və aşkar görünmürdü. Çox şey yalnız o dövrdə hökm sürən iqtisadi, siyasi və hərbi şərtlərdən deyil, həm də bu münaqişəyə cəlb olunmuş konkret siyasi liderlərdən asılı idi. Bu baxımdan Karen Seropoviçin Azərbaycan lideri Heydər Əliyeviç Əliyev haqqında söylədiyi fikri xatırlayıram. Mənim bildiyim qədər onlar heç vaxt xüsusi dostluq münasibətlərində olmayıblar, ancaq Karen Seropoviç Heydər Əliyeviç faktoruna sözsüz ki, pozitiv yanaşırdı. O düşünürdü ki, Qarabağ problemini yekun həll etmək mümkün olmasa belə, istənilən halda Heydər Əliyeviçlə birgə sülhü və danışıqlar aparılması imkanını qorumaq olar*”. [7]

1991-1998-ci illərdə Ermənistanın Prezidenti Levon Ter-Petrosyan Azərbaycanın Ermənistan üzərində gələcək qələbəsi üçün hər şeyin Heydər Əliyevin prezidentliyi dövründən başladığını aşağıdakı kimi etiraf etmişdir:

*“Heydər Əliyev Azərbaycanı I Qarabağ müharibəsində üzləşdiyi məğlubiyyətdən çıxarana, güclü ölkə qurana qədər masada diplomatik manevrlər etdi. Məqsəd güclü ordu, qüdrətli Azərbaycan qurmaqla bir gün heç bir güzəşt etmədən işğal olunmuş Azərbaycan torpaqlarını azad etmək idi. İlham Əliyev bu strategiyanı dəyişən dünyanın şərtlərinə uyğunlaşdıraraq, ağılla tətbiq etdi və Zəfər gününü yetişdirdi.*

*Burada diqqətçəkən məqamlardan biri zaman məsələsidir. Prezident İlham Əliyevin “Mən nəyi nə zaman etməyi yaxşı bilirəm” sözləri olduqca yerində olan sözlərdir”.[6]*

O, Serj Sarkisyanı “ən sakit dönəm onun hakimiyyəti dövründə olub” fikrinə görə tənqid edir. Serj Sarkisyan deyir ki, bütün təklifləri Azərbaycan tərəfi rədd edib. Levon Ter Petrosyan Robert Köçaryanı da günahlandırır:

*“Robert Köçaryan fikirləşməli idi ki, nəyə görə Azərbaycan tərəfi rədd edirdi. Deməli, Azərbaycan əmin idi ki, zaman onun xeyrinə işləyir. Həmin insan bu adi məsələni dərk edə bilmədi. Burada siyasi fikir yoxdur. Əgər problemin varsa, gərək qarşındakının fikirlərini biləsən. Gördünüz ki, zaman Azərbaycanın xeyrinə işlədi. İqtisadi baxımdan Azərbaycan gücləndi, Ermənistan isə zəiflədi, müasir ordu yaratdı, bizim ordu isə miqrasiya səbəbindən kiçildi... Koçaryan və Sarkisyan, hətta Vazgen Sarkisyan bunu dərk edə bilmədilər ki, zaman məfhumu var...”.[6]*

Levon Ter-Petrosyan onu da etiraf edir ki, o, əgər hakimiyyətdən uzaqlaşmasaydı, Ermənistanda vətəndaş müharibəsi başlaya bilərdi.

Azərbaycan və Ermənistan arasında tarazlıq pozulduqda onu heç kəs dərk edə bilmədi:

*“Çox sadə vəziyyətdə dəyişdi, özü də Azərbaycanın xeyrinə. Balans 1997-98-ci illərdə pozuldu. Azərbaycanda Beynəlxalq neft konsorsiumu yarananda. Bundan sonra Əliyevin sözü dəyişdi. Lissabon sammitindən sonra masada Qarabağ haqqında adi bir sənəd qoyulmuşdu. Yəni ATƏT Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində əsas rola malik idi. Həmin bəyannamə müzakirə olunan zaman Vardan Voskanyan da orada idi, o bizi əmin etdi ki, hər şey öz qaydasındadır. Biz Lissabona çatanda Voskanyan bizi qarşıladı, onun rəngi qaçmışdı, kəkələyərək bildirdi ki, Cənab prezident, ötən gün Amerika yeni qətnamə təklif edib və bunu bizdən başqa hamı ilə razılaşdırıb. Mən veto qoydum. Həmin qətnamənin Klintonun masasına necə çatması haqqında da məlumatlı idim. Bunu Texasın neft lobbisi etmişdi. Yəni onlar bildirmişdi ki, Əliyev bizə xahiş edib, belə sənəd Lissabonda təsdiq edilməlidir. Həmin vaxtdan Azərbaycan tərəfi müəyyən dərəcədə bundan ruhlandı, xarici qüvvələrin köməyi hesabına öz məqsədlərinə çata bilərdi. Bundan sonra Əliyev danışıqlarda müəyyən razılığa gəldikdə bundan imtina edirdi ki, bizə sərf*

*etmir. Artıq onlar dərk etmişdilər ki, zaman onların xeyrinə işləyir və haqlı da çıxdılar. Ermənistan isə uduzdu".*[6]

Levon Ter-Petrosyanın fikrincə, 30 il ərzində Azərbaycan pullarını hərbi qüdrətini artırmaq üçün xərcləmişdir:

*"Dövlət atdığı, atacağı addımları, yaxud hansı addımı niyə atdığını açıqlamır, açıqlamamalıdır da. Lakin Qarabağ məsələsində balansın Azərbaycanın necə xeyrinə dəyişdiyi məsələsi hər şeyə cavabdır deyə düşünürük"…*[6]

Levon Ter-Petrosyan Ermənistanı məhvə sürükləyən xəyali ideyanın, məkrli siyasətin əsl mahiyyətini də belə açıqlayır:

*"Dənizdən-dənizə Ermənistan, Kürdən-Araza respublika xəyallarından əl çəkmək lazımdır. İnsan hakimiyyətə gəldiyində bilməlidir ki, Ermənistanın vəziyyəti necədir, qonşuları ilə hansı problemləri var, hansı xarici çağırışlarla üzləşir və realist yollarla bu problemləri həll etməyə cəhd etməlidir. Xəyallar qurmaq yetkin olmayan cəmiyyətlərə xasdır. Böyük dövlətlər ətrafında nəhəng institutlar, analitiklər, araşdırıcı təşkilatlar işləyir və hər bir detala diqqət yetirilir. Yəni siyasi addımlarının xeyir və ziyanlarını müqayisə edirlər. Dövləti idarə etməyə qadir olmayan insanlar hələ düşüncə tərzinə uyğunlaşmayıblar". [6]*

Levon Ter-Petrosyan reallığı qəbul edir, Azərbaycanın Şuşanın ikinci dəfə işğalına imkan verməyəcəyinə işarə vurur və bununla da Qarabağın gələcəyinin əslində necə olacağını göstərməyə çalışır. O, Ermənistanı vətəndaş müharibəsinin gözlədiyi barədə fikirlərini belə ifadə edir:

*"Bu seçkilər ola bilsin ki, vətəndaş müharibəsinə də sövq edə bilər. Müxalifət və iqtidar ölüm-olum savaşı qarşısındadırlar. Təhlükəlidir. Pis hakimiyyətlər, diktatorlar olur, lakin onlardan yaxa qurtarmaq mümkündür. Ölkə üçün ən təhlükəlisi vətəndaş müharibələridir"[6].*

Onun etiraflarında bir məqam da diqqət çəkir:

*"Gizli olan məsələlər var ki, onlardan danışmıram, indi bizim ordunun sayı 90-cı illərdəkindən azdır. İndi nəyə ümid edirlər".[6]*

Bununla da o, Ermənistanda revanşizmin ölkəni əvvəlkindən də pis vəziyyətə salacağını anlatmağa çalışır.

Levon Ter-Petrosyan dedikləri Heydər Əliyevin Azərbaycanı Qələbəyə doğru aparmasının da etiraflarıdır. Heydər Əliyevin dediyi kimi, tarix hər şeyi öz yerinə qoyur. [6]

***İranla mehriban qonşuluq münasibətləri***

Heydər Əliyev İran İslam Respublikası ilə olan siyasi-ideoloyi qarşıdurma və anlaşılmazlığı aradan qaldıraraq qarşılıqlı əməkdaşlıq prinsipinə əsaslanan mehriban qonşuluq siyasəti həyata keçirdi.

27 oktyabr 1993-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşündə İran İslam Respublikasının Prezidenti Əkbər Haşimi-Rəfsəncani demişdir:

*"Biz əlaqələrimizi o səviyyədə inkişaf etdirməliyik ki, düşmənlərimiz bilsinlər ki, bu iki ölkə həmrəydir, bir-birinə hamidirlər. Mən görürəm ki, səfər üçün bir sıra sənədlər hazırlanmışdır, burada böyük bir siyahı vardır. Və mən ümidvaram ki, bu sənədlərin imzalanması hər iki ölkə arasında əməkdaşlıq üçün yaxşı, geniş bir səhifə açacaqdır.Mən Sizinlə əməkdaşlıqdan danışarkən, təkidlə deyə bilərəm ki, bizim üçün Azərbaycanla münasibətlər çox mühümdür. Mən əminəm ki, Sizin tərəfinizdən də bu əməkdaşlığa belə əhəmiyyət verilir. Və mən onu deməliyəm ki, biz istəmirik ki, bu gün qol çəkdiyimiz sənədlər kağız üzərində qalsın. Bu əməkdaşlığı həyata keçirmək üçün gərək əməli iş görülsün. Deyilənlərə onu da əlavə edə bilərəm ki, bizim aramızda*

*heç bir maneə yoxdur və biz bütün sahələrdə əməkdaşlıq edə bilərik.Mən çox əminəm ki, həm mən, həm də Siz dövlət başında olanda iki müsəlman ölkəsi arasında əməkdaşlıq üçün bir nümunə yarada bilərik ki, bu, başqa dövlətlər üçün bir nümunə kimi qalsın".[1]*

1997-2005-ci illərdə Prezident olmuş Seyid Məhəmməd Xatəmi Heydər Əliyevin İran-Azərbaycan əlaqələrinin inkişafında müstəsna rol oynadığını xüsusi vurğulamışdır:

*"Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir. Onun keçən il İran İslam Respublikasına çox səmərəli səfəri ölkələrimizin əlaqələrində dönüş nöqtəsi olmuşdur". [3]*

***Nəticə***

Beləliklə, Qafqaz liderləri Heydər Əliyevi fenomenal, əzmkar ictimai-siyasi dövlət xadimi, nüfuzlu, görkəmli şəxsiyyət kimi səciyyələndirmişlər. Onlar Heydər Əliyevin Türkiyə-Azərbaycan, Rusiya-Azərbaycan, Gürcüstan-Azərbaycan, İran-Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin yaranmasında və inkişafında, regional sülh və əmin-amanlığın reallaşmasında müstəsna xidmətləri olan regional və dünya lideri olduğunu vurğilamışlar.

Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası, İran İslam Respublikası, Gürcüstan, hətta Ermənistan liderləri Heydər Əliyevin siyasi fəaliyyətinə dair dəyərli fikirlər söyləmiş onu Azərbaycan Respublikasının, regionun böyük liderlərindən biri kimi qiymətləndirmişlər. Bu baxımdan Süleyman Dəmirəlin, Əhməd Necdət Sezərin, Bülənd Ecevitin, Rəcəb Tayyib Ərdoğanın, Boris Yeltsinin, Vladimir Putinin, Eduard Şevardnadzenin, Mixail Saakaşvilinin, Karen Dəmirçiyanın, Levon Ter-Petrosyanın, Əli Əkbər Haşimi Rəfsəncani, Seyid Məhəmməd Xatəminin Heydər Əliyev haqqında fikir və etirafları onun böyük tarixi şəxsiyyət olduğunu bir daha təsdiq edir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Prezidenti Heydər Əliyevin İran İslam Respublikasinin prezidenti Əkbər Haşimi-Rəfsəncani ilə rəsmi görüşdə söhbətindən - 27 oktyabr 1993-cü il//Welcome to Heydar Aliyevs Heritage Research Center/ 04.07.2023 https:// b.aliyev-heritage. org /az/ 456 3421.html
2. Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipovun Azərbaycana rəsmi səfəri Yeni Azərbaycan.- 2016.- 13 may.- S.3
3. Dünya Heydər Əliyev haqqında 16.09.2016/https:// penitensiar.justice. gov.az /heyder-aliyev/ 221-18-heydr-liyev-dnya-hliyev-haqqnda.html
4. Heydər Əliyev və Şərq. 6 cilddə 2-ci kitab:Türkiyə. Bakı: Çaşıoğlu, 2005, -588 s.
5. Qədimoğlu N.,Aydınoğlu T. Eduard Şevardnadze: "Heydər Əliyev Gürcüstan - Azərbaycan dostluğunu uca zirvələrə qaldıran, yenidən qurub möhkəmləndirən tarixi şəxsiyyətdir" | Xalq Qəzeti12.05.2012./ https://old .xalqqazeti.com/az/ news/interview /21926
6. Levon Ter-Petrosyanın etiraflari: Əliyev Zəfər gününü necə yetişdirdi?// https://konkret.az/ levon-ter- petrosyanin-etiraflari-eliyev-zefer-gunun-nece-yetisdirdi
7. Karen Dəmirçiyan: "Mən Heydər Əliyev faktoruna pozitiv yanaşıram, biz onunla...//24.02.2021. /htms: teleqraf. com./news/siyaset/279600

8. Putin bir dəfə üzrxahlıq edib - o da Heydər Əliyev qarşısında!// 11/06/2023/htm: baku. ws /politics/4696
9. Rusiya Federasiyasinin Prezidenti Boris Yeltsinin nitqi// Azərbaycan — Rıısiya: Dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında yeni mərhələ Bakı: Şərq-Qərb, 1997, s.18-23
10. Rusiya Federasiyasinin Prezidenti Vladimir Putin Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmişdir.// 6.12.2003.https: //azertag.az/xeber/rusiya _federasi-yasinin_prezidenti _vladimir_ putin_ prezident_ heydar_aliyevin _dafn_ marasiminda_ istirak_etmisdi
11. Rusiya lideri: "Heydər Əliyev ölkələrimizin tarixində birləşdirici simadır"//25 may, 2023 /https:// qafqazinfo. az/news /detail/putin-heyder-eliyevden-danisdi-401549
12. Şevardnadze E.A.Keçmiş və gələcək haqqında fikir.Memuarlar.-Bakı, 2007, -236 s.
13. Tbilisidə Heydər Əliyevin büstü açılıb. Mixail Saakaşvili: "Heydər Əliyev müasir Azərbaycan dövlətinin, millətinin atasıdır"// Kaspi.-2007.-15 may.-S.2
14. Этапы территориальных притязаний армян на Карабах/15.06.2023/ htps:karabakh.center/d/page 18220955.html

Daxilolma tarixi: 17.05.2023
Çapa qəbul edilmişdir: 02.06.2023